# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**“Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş**
**“Əsas Qrant Müsabiqəsi-2024” ün**
**(AEF-MGC-2024-2(50)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 1-ci mərhələ)**

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Arxeoloji qazıntılar zamanı aşkar edilən insan qalıqlarının bioarxeoloji tədqiqi və AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun bazasında Bioloji antropologiya laboratoriyasının yaradılması**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Məmmədli Əliağa Əyyub oğlu**
Layihənin nömrəsi: **AEF-MGC-2024-2(50)-16/16/5-M-16**
Müqavilənin imzalanma tarixi: **21 oktyabr 2024-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 noyabr 2024-cü il – 31 oktyabr 2026-cı il**
*Layihənin **I mərhələ** üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | Mövcud olan və cari arxeoloji qazıntılardan aşkar edilən antropoloji materialların inventarlaşdırılması, sistemləşdirilməsi.<br><br>Müxtəlif dövrlərə aid qəbir abidələrindən ümumilikdə 229 insan skeleti, həmçinin izolə şəkildə 526 sümük fraqmenti inventarlaşdırılmışdır. İşlənmiş insan qalıqları Çovdar Son tunc-erkən dəmir dövrü (99 skelet), Muncuqlutəpə son tunc dövrü (9skelet), Dəmirçi son antik dövrü (8skelet), Səlbir orta əsr (37 skelet) və Tülü orta əsr dövrü (76 skelet) qəbir abidələrindən aşkar edilmişdir. Qəbələ rayonu ərazisində yerləşən Səlbir orta əsr nekropoludan 2013-2019 cu illərdə aparılan arxeoloji qazıntılar zamanı üzə çıxarılan 37 insan skeleti Qəbələ Arxeologiya mərkəzində işlənmiş və mərkəzin fondunda saxlanılmıdır. Digər materiallar isə Arxeologiya və Antropologiya İnstitutunun fondunda saxlanılır.<br><br>Bundan əlavə Azərbaycan Tibb Universitetinin İnsan Anatomiyası və Tibb Terminologiyası Kafedrasındakı "İnsan Anatomiyası Muzeyi"nin sərgisində və Milli Azərbaycan Tarixi Muzeyinin fondunda saxlanılan Neolit dövründən Orta əsrlərə qədərki dövrü əhatə edən bəzi kəllə sümükləri tədqiq edilmiş, ölçüləri qeyd edilmiş, sistemləşdirilmişdir.<br><br>Insan qalıqları tamlıq dərəcəsinə görə sistemləşdirilmiş və buna uyğun olaraq kodlaşdırılmışdır. Tam və |

| | |
|---|---|
| | ya qismən tam olan skelet (S-Skelet), eyni insana aid olan iki və ya daha çox olan sümük fraqmentləri (SH-Skelet hissəsi), tək sümük və kiçik parçalı fraqmentlər isə (ÜSH-Ümumi skelet hissəsi) şəklində inventarlaşdırılmışdır. Hansı sümüyə (və ya individuala) aid olduğu bilinməyən kiçik parçalar şəklində olan sümük nümunələri quruluşuna görə təsnifatlandırılmış və eyni inventar nömrəsi verilmişdir. İnventar kodlarında materialın aşkar olunduğu ərazinin və abidənin adlarının baş hərflərindən və sıra nömrələrindən istifadə olunmuşdur. İnventarlaşdırmaya cəlb olunan hər bir material anatomik şəkildə düzülmüş, inventar nömrəsi qeyd olunmuş lövhənin fonunda vertikal planda şəkil çəkilmişdir. Tam və ya qismən tam olan bütün skeletlərdə yaş, cinsiyyət təyini aparılmıış, boy ortalamasının hesablanması üçün uzun sümüklərdən metrik ölçülər götürülmüşdür. Sonuncu mərhələdə sümük numunələri xüsusi paketlərə qoyularaq qablaşdırılmışdır. Əldə olunmuş yekun məlumatlar Microsoft Excel proqramında yaradılmış cədvəldə xüsusi başlıqlar altında öz əksini tapmışdır. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | Planda nəzərdə tutulmuş işlərin təxminən 85%-i yerinə yetirilmişdir. Hazırda antropoloji materialların inventarlaşdırılması və sistemləşdirilməsi üzrə işlər intensiv şəkildə davam edir. |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | İlk dəfə olaraq çox sayda arxeoloji qazıntılardan aşkar olunmuş antropoloji materiallar sistemləşdirilərək inventarlaşdırılıb. Müxtəlif skelet nümunələri quruluşuna görə təsnifatlandırılmış və eyni inventar nömrəsi verilmişdir. Yenilik həm də ondan ibarətdir ki, ilk dəfə olaraq tam və ya qismən tam olan bütün skeletlərdə yaş, cinsiyyət təyini aparılmıış, boy ortalamasının hesablanması üçün uzun sümüklərdən metrik ölçülər götürülmüşdür. |
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | Osteoloji materialların sistemləşdirilməsi və inventarlaşdırılmasında arxeologiya və fiziki antropologiya sahəsində dünyada qəbul edilən beynəlxalq standart əsas götürülmüşdür. İnventar nömrəsinin verilməsində ərazi, abidə, qəbir (sadə qəbir, kurqan və s) nömrəsi, qazıntı ili qısaldılmış şəkildə öz əksini tapmışdır. Nümunələrin qablaşdırılmasında sümüklərin yerləşmə və funksyasına görə müəyyən edilmiş təsnifatlandırma əsas götürülmüşdür. Belə ki, kəllə, yuxarı ətraf, aşağı ətraf, gövdə, əl və ayağı təşkil edən sümüklər fərqli paketlərdə qablaşdırılmışdır. Hər bir paketin üzərinə nümunələrin hansı hissəyə aid olması yazılmışdır. Skeletlərdə cinsiyyətin müəyyən edilməsində çanaq sümüyündəki cinslərarası morfoloji fərqliliklər, qlabellanın və qaş kəmərlərinin inkişafı, məməyəbənzər çıxıntının həcmi, ənsə sümüyü və bud sümüyünün arxa səthindəki kələ-kötür (linea aspera) xəttin inkişaf dərəcəsi əsas götürülmüşdür (WEA, 1980, "Recommendation for Age and Sex Diagnoses of Skeletons", Journal Human Evolution, C.9, S.7, s.518 -549).<br><br>Ölüm yaşının təyin edilməsində sutural yaşlandırma, yetişkin insanlar üçün tətbiq olunan dişlərdəki aşınma səviyyəsi, həmçinin çanaq sümüyündə symphisis pubis və auricular facetin sürtünmə<br><br>dərəcəsinə diqqət edilmişdir (Meindl, R.S. Lovejoy, C.O., "Ectocranial Suture Closure: A Revised Method for the Determination of Skeletal Age at Death Based on the Lateral-Anterior Sutures", American Journal of Physical Antrplogy 1985, s.57-66).<br><br>Ən azı bir ədəd uzun sümüyü tam şəkildə saxlanmış olan skeletlərdən morfometrik ölçülər alınaraq, ortalama boy uzunluğu hesablanmışdır. Boyun hesablanması türkiyəli fizik-antropoloq Mehmet Sağırın |

| | |
|---|---|
| | tərtib etdiyi rentgenoloji reqresyon formulası əsasında hesablanmışdır (Sağır. M., “Uzun Kemik Radyografilerinden Boy Formülü Hesaplanması”,Basılmamış Doktora Tezi, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara: 2000) |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | Bu mərhələdə nəşrlər olmayıb |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | Yoxdur |
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | Olmayıb |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | Layihənin üzvü, Fiziki Antropologiya laboratoriyasının əməkdaşı Şaxanım Bayraməli 2024-cü ilin dekabr ayında (26 gün) Ağdam rayonunun Xıdırlı kəndi ərazisində aparılan erkən xristianlıq dövrünə aid nekropolun qazıntısında iştirak edib. |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | Yoxdur |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | 12 yanvar, 2025-ci il tarixində AMEA Arxeologiya və Antropologiya İnstitutunda paleogenetik tədqiqat layihəsinin ilkin mərhələsinin yekunlarına həsr edilmiş hesabat təqdimatı keçirilib. Arxeologiya və Antropologiya İnstitutunun fondunda saxlanılan müxtəlif dövrlər üzrə insan qalıqlarından genetik tədqiqatlar üçün götürülmüş nümunələrin ilkin nəticələri təqdim olunub. Tədqiqatlar Hacəttəpə və Orta Şərq Texnik Universitetinin mütəxəssləri ilə birgə aparılır. Qeyd etmək lazımdır ki, İnstitut Azərbaycan Elm Fondunun ayırdığı qrant əsasında, Hacettepe Universitetinin (Türkiyə Cümhuriyyəti) Antropoloji bölümünün dəstəyi ilə xüsusi elmi-tədqiqat layihəsi gerçəkləşdirməyə başlamışdır. Layihəyə əsasən arxeoloji qazıntılar zamanı aşkar edilən insan qalıqlarının bioarxeoloji tədqiqi və Arxeologiya və Antropologiya İnstitutu ilə BDU-nun bazalarında müştərək Bioloji antropologiya laboratoriyasının təşkili nəzərdə tutulub.<br><br>*https://arxeologiya.az/?p=3843*<br>*https://science.gov.az/az/news/open/31274*<br><br>13 yanvar, 2025-ci il tarixində Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun baş direktoru Fərhad Quliyev, İnstitutun Antropologiya şöbəsinin müdiri, Layihənin rəhbəri, professor Əliağa Məmmədli, Yaponiyanın Sapporo Tibb Universitetinin Tibb Elmləri Məktəbinin professoru Hirofumi Matsumura, Türkiyənin Hacettepe Universitetinin Antropologiya bölümünün rəhbəri, Hacettepe skelet biologiyası laboratoriyasının Hacettepe molekulyar antropologiya laboratoriyasının qurucusu Yılmaz Selim Erdalla görüşüb.<br><br>Görüşdə BDU ilə birgə müştərək laboratoriyanın, müvafiq struktur bölmənin yaradılması, onların arxeologiya sahəsi üzrə geniş tədqiqatlara imkan verən maddi-texniki cihaz və avadanlıqlarla təmin |

| | |
|---|---|
| | edilməsi, tələbələrin çöl ekspedisiyalarının genişləndirilməsi, Qarabağda arxeoloji tədqiqatlarda birgə iştirak kimi məsələlər müzakirə olunub.<br><br>https://arxeologiya.az/?p=3825<br>http://bsu.edu.az/az/news/bduda_arxeoloji_qazntlardan_ld_ediln_smk_nmunlrinin_genetik_dnt |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | Hələlik əldə olunmayıb |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev ilə görüş keçirilib və bioloji laboratoriyanın yaradılması prosesində əməkdaşlıq müzakirə edilmişdir. Arxeologiya və Antropologiya İnstitutunun arxeoloji ekspedisiya rəhbərləri ilə işgüzar görüşlər zamanı qazıntılarda aşkar olunan antropoloji materialların təhvil verilməsi və birgə işlənməsi müzakirə olunmuşdur.<br><br>https://arxeologiya.az/?p=3825 |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | Hesabat dövründə layihə ilə əlaqədar Yaponiyanın Sapporo Tibb Universitetinin Tibb Elmləri Məktəbinin professoru Hirofumi Matsumura, Türkiyənin Hacettepe Universitetinin Antropologiya bölümünün rəhbəri, Hacettepe skelet biologiyası laboratoriyasının Hacettepe molekulyar antropologiya laboratoriyasının qurucusu Yılmaz Selim Erdall, Ankara Universiteti, Dil və Tarix – Coğrafiya Fakültəsi (DTCF), Fiziki antropologiya bölməsinin müəllimi, Universitetin "Türkçe ve Yabancı Dil Uygulama ve Araştırma Merkezi"-nin (TÖMER) rəhbəri, professor, doktor Timur Gültəkin, Ankara Universiteti DTFC-nin Fiziki antropologiya bölməsinin rəhbəri, professor, doktor, paleoantropoloq Ayla Sevim Erol ilə görüşlər keçirilmiş, seminarlar təşkil olunmuşdur.<br><br>https://arxeologiya.az/?p=3368<br><br>https://arxeologiya.az/?p=3843<br><br>https://science.gov.az/az/news/open/31274 |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | Layihənin birinci mərhələsinin həyata keçirilməsində layihə iştirakçıları ilə yanaşı Arxeologiya və Antropologiya İnstitutunun gənc əməkdaşları Lamiyə Həbibova və Zümrüd Mehdiyeva praktikant qismində iştirak edərək bioloji antropologiyanın əsaslarını, antropoloji materialın toplama və işləmə metodikasını mənimsəmişlər. |
| **15** | Sərgilərdə iştirak |
| | Olmayıb |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | 13-17 yanvar 2025-cü il tarixlərində AMEA Arxeologiya və Antropologiya İnstitutunun Məhkəmə Arxeologiyası şöbəsinin rəhbəri, layihə üzvü, t.ü.f.d. Akif Quliyev və layihə üzvü, k.e.i. Şahxanım Bayraməli Azərbaycan Respublikası Əsir və İtkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə AR Səhiyyə Nazirliyi Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi Publik |

| | |
|---|---|
| | Hüquqi Şəxsin məhkəmə – tibbi ekspertləri, AR Baş Prokurorluğunun əməkdaşları, AR Fövqaladə Hallar Nazirliyi və AR Müdafiə Nazirliyinin hərbçiləri ilə birgə "İnsan qalıqlarının axtarışı və bərpası ilə tanışlıq" təlimində iştirak ediblər. Həm nəzəri mühazirə, həm də praktiki çöl tədqiqatları ehtiva edən təlimin sonunda İnstitutun əməkdaşları Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin sertifikatları ilə təltif olunublar. <br> *https://arxeologiya.az/?p=3877* |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | Hələlik yoxdur |

**Layihə rəhbərinin imzası** ___________________Məmmədli Əliağa Əyyub oğlu

**Tarix** ____________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.